

# TURİZMİN REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFINA TƏSİRİ

Hazırda dünyaya meydan oxuyan COVİD-19 pandemiyası beynəlxalq iqtisadiyyatı çökdürmək üzrədir. Bu çöküşdən ən çox ziyan çəkən sahə isə iqtisadiyyatın ən mühüm qollarından biri olan turizm sektorudur.

Turizm təbiətin bəzi ölkələrə bəxş etdiyi tükənməz gəlir mənbəyidir. Müasir standartlara cavab verən infrastruktur yaratmaqla bu mənbədən yararlanan potensiallı ölkələr öz büdcələrinin böyük bir hissəsini məhz turizm sektorunun hesabına formalaşdırırlar. Artıq bir neçə aydır ki, bu sahə fəaliyyətini demək olar ki, "dondurub". Lakin turizm tükənməyən bir sərvət olduğuna görə onun inkişafını hər hansı amil ləngitsə də yox edə bilməz.

Çox şanslıyıq ki, vətənimiz Azərbaycan da turizm adlı xəzinəyə sahibdir. Azərbaycanda iqtisadiyyatın diversifikasiyası, regionların inkişafı üçün məhz bu sənaye həlledici əhəmiyyətə malikdir. Elə buna görə dövlətimiz turizmin inkişafını iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamət elan edib. Son illər turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, Bakıda və regionlarda müasir standartlara uyğun infrastrukturun qurulması, ölkəmizin nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi bu siyasətin həyata keçirilməsi istiqamətində atılan addımlardandır.

### *Dövlət proqramları regionlarda turizmin inkişafını stimullaşdırdı*

Azərbaycanda bir neçə region üzrə turizm sahəsində çox sürətli inkişaf gedir. Bu isə büdcə gəlirlərinin artmasına, yoxsulluğun və işsizliyin azalmasına səbəb olur. Mütəxəssislərin fikrincə, sözügedən sahənin inkişafı 52 sektora təsir göstərir. Bu baxımdan turizm iqtisadiyyatda sahələrarası katalizator roluna malik sektor kimi qiymətləndirilir.

Azərbaycanda regionların sosial-iqtisadi inkişafına dair qəbul edilən bir neçə dövlət proqramının həyata keçirilməsi turizmin inkişafına çox böyük dəstək oldu. İqtisadçı ekspert, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramovun sözlərinə görə, 2015-ci ildən etibarən regionlarda formalaşan infrastrukturun dəyərə çevrilməsi müşahidə edilir: "Bu da təbii ki, həm də turizm sektoruna təsir göstərdi və ölkəyə gələn turistlərin sayında artımlarla müşahidə olundu. Nəzərə alsaq ki, 2019-cu ildə ölkəmizə gələn turistlərin sayı 3 milyondan çox və xaricilərin Azərbaycanda xərclədiyi vəsaitlərin həcmi 2 milyard dollara yaxındır, deməli, pandemiyaya qədər biz turizm sektorunun kifayət qədər dinamik inkişafını müşahidə edirdik".

Ekspertin fikrincə, proqramlar regionlarda infrastrukturun, o cümlədən loqistik xidmətlərin inkişafına təkan verdi. Nəticə etibarilə əgər 2015-ci ilədək ölkəyə gələn turistlərin təxminən 20 faizi regionlara səfər edirdilərsə, son illər yarıdan çoxu regionlara gedir: "Bu da ondan xəbər verir ki, artıq regionlar da xarici turistlər üçün cəlbedicidir. Regionların inkişafı daxili turizmin inkişafı üçün də zəmin formalaşdırır. İnkişaf etmiş ölkələrdə, o cümlədən Avropa Birliyində turizm gəlirlərinin 80 faizi daxili turizmin payına düşür. Pandemiya kimi xarici şoklar da bir daha təsdiqləyir ki, daxili turizm gəlirləri də çox vacibdir. Bu kontekstdən təbii ki, regionların inkişafı ilə bağlı dövlət proqramları regionlarda həm də daxili turizmin inkişafını stimullaşdırdı. Turizm elə sektordur ki, çox fərqli sahələrə, o cümlədən nəqliyyata, xidmətə, ictimai-iaşəyə, bank sektoruna birbaşa təsiri var. Bu baxımdan regionlarda turizmin inkişaf etdirilməsi həm də yan sektorların inkişafına dəstək verir. Bu baxımdan icra olunan proqramlar regionlarda və bütövlükdə ölkədə turizmin inkişafına pozitiv təsir göstərdi".







## Aqroekoturizm alternativ turizm sahəsidir

Turizm sektorunun təmsilçiləri üçün yeni bir termin olan aqroekoturizm regionların sosial-iqtisadi inkişafı ilə qırılmaz surətdə bağlı bir istiqamətdir. Aqroekoturizm özündə bir neçə mədəni sahəni ehtiva edir. Bu sektor ilk növbədə alternativ turizm sahəsidir.

Aqroekoturizmin kənd təsərrüfatının inkişafındakı rolu şəksizdir. Bu sektorun formalaşdırılmasının əsas məqsədi elə kənd təsərrüfatında çalışanların maddi rifah halını yüksəltməkdir. Qeyri-neft sektorunun inkişafının günün əsas tələbinə çevrildiyi, neft erasının sona çatmaq üzrə olduğu indiki vaxtda, Azərbaycan iqtisadiyyatının qarşısında dayanan əsas məsələlərdən biri də insanlarımızın yenidən kəndə qayıdışını təşviq etməkdir. Bunun üçünsə kəndlərdə əlavə gəlir mənbələri yaradılmalı, aqrar təsərrüfatla məşğul olanların daha çox qazanmaq imkanı təmin edilməlidir. Dünya təcrübəsi sübut edir ki, aqroekoturizm bu sahədə ən başarılı siyasətlərdən biridir. Avropanın aparıcı dövlətləri, ABŞ, Avstraliya, Yaponiya, Cənubi Koreya kimi inkişaf etmiş ölkələr məhz bu səbəbdən kənd turizminə böyük əhəmiyyət verirlər.

Aqroekoturizm Azərbaycanın sosial-iqtisadi həyatında bir çox sahələrin inkişafının əsas təminatçısına çevrilmək gücündə olan sahədir. Bu sahənin inkişafı hər bir aidiyyəti qurumun strateji hədəfinə çevrilməlidir.

Bunları nəzərə alaraq Kənd Təsərrüfatı Nazirliyi ötən ildən ölkəmizdə aqroekoturizmin inkişafına həsr olunan “Şəhərdən kəndə” layihəsinə start verib. Layihənin əsas məqsədi kənd turizminin inkişafı, kəndli-fermerlərə və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən müəssisələrə biznes imkanları yaratmaq, həmçinin onlar üçün alternativ satış kanalı təşkil etmək və şəhər sakinlərinə fərqli səyahət imkanı təqdim etməkdir. Beləliklə, aqrar sahibkarlar yerli və xarici turistləri öz təsərrüfatlarında qonaq edərək əlavə gəlir qazanırlar.

“Aqrar Tədarük və Təchizat” ASC-dən verilən məlumata görə, layihə çərçivəsində bu günə qədər 13 müxtəlif regionda 300-ə yaxın kəndli-fermer və aqrar sahibkarlarla görüş keçirilib, onlar aqroturizm barədə məlumatlandırılıb. Hazırkı mərhələdə 200-ə yaxın təsərrüfat sahibi “Şəhərdən kəndə” layihəsinə qoşulmaq üçün müraciət edib.

## Əsas məqsəd dayanıqlı turizmə nail olmaqdır

Regionlarda turizmin inkişafı istiqamətində turizm qurumları tərəfindən də müəyyən addımlar atılır. Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsində kənd turizminin inkişafının prioritetlərdən biri olduğunu deyir. Onun sözlərinə görə, Azərbaycanda turizmin müxtəlif növlərini, o cümlədən regional turizmi inkişaf etdirməklə dayanıqlı turizmə nail olmaq qarşıda duran əsas məqsəddir: “Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosu tərəfindən regionların turizm potensialının daha effektiv istifadəsi üçün artıq 4 Destinasiya Menecmenti Təşkilatı fəaliyyət göstərir. Yeni idarəetmə modeli olaraq DMT-lər yerli səviyyədə dövlət-özəl sektor tərəfdaşlığında mühüm rol oynayırlar. Qarşımızda duran mühüm vəzifələrdən biri də kiçik və orta sahibkarlığa dəstək verilməsi, yerləşmə yerlərinin standartlara uyğunlaşdırılması, iş yerlərinin yaradılması, qadınların, aztəminatlı şəxslərin kənd turizmində rolunun artırılmasıdır”.

## Daxili turizmin inkişafını stimullaşdırmaq vacibdir

Regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayan turizm istiqamətlərindən biri də sağlıq turizmidir. Çünki Azərbaycanda sağlıq turizmi təsisatlarının 90-95 faizi bölgələrdə yerləşir.

Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının sədri Ruslan Quliyev deyir ki, Azərbaycanın sağlıq turizminin çox böyük potensialı və keçmişə söykənən ənənələri mövcuddur: “Təkcə bir faktı qeyd edim ki, dünya reytinq agentliklərinin və sorğu mərkəzlərinin keçirdiyi sorğularda Azərbaycan hər zaman bu turizm növünün populyarlığına görə ilk üçlükdə qərar tutur. Sağlıq turizmini digər istiqamətlərdən üstün edən cəhət ilin 365 günü aktual olmasıdır. Bu da turizmin mövsümiliyinin aradan qaldırılması deməkdir. Ona görə də bu sahəyə xüsusilə diqqət yetirilməlidir. Müxtəlif sığorta təşkilatları, fondlar vasitəsilə daxili turizmin inkişafını stimullaşdırmaq vacibdir”.

Beləliklə, turizm sahəsinin gələcəyinə Azərbaycanda çox böyük ümidlər var. Görülən tədbirlər, verilən dövlət dəstəyi və düzgün qərarlar nəticəsində bu sektor postpandemiya dövründə də uğurla inkişaf edəcək və Azərbaycan dünyada yeni bir destinasiya kimi çoxsaylı turistlərin seçiminə çevriləcək. ❖

**Fəxriyyə Abdullayeva**